## Əmək pensiyalarının hesablanması qaydası ilə bağlı qanunvericiliyə dəyişiklik edilib

"Əmək pensiyaları haqqında" qanunun yenilənmiş 22.1-ci maddəsində (22-1.1) qeyd olunur ki, 2019-cu ilin yanvarın 1-dən etibarən sığortaolunanın əmək pensiyası avtomatlaşdırılmış qaydada təyin edilərkən, onun fərdi hesabının sığorta hissəsində 2018-ci ilin 1 iyul tarixində qeydə alınmış pensiya kapitalı olduqda, 2006-cı ilin yanvarın 1-dək olan sığorta stajı mövcud qanunun 22-1.2 maddəsinə uyğun olaraq hesablanacaq.

Həmçinin, 22-1.2.1-ci maddədə göstərilir ki, 2019-20-ci illərdə bu qanun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinə çatmış sığortaolunana yaşa görə əmək pensiyası təyin edilərkən, onun 2006-cı ilin yanvarın 1-dək olan sığorta stajı 25 il, 2021-ci ildən etibarən isə hər təqvim ili üçün bir il azaldılmaqla hesablancaq.

22-1.2.2-ci maddədə isə qeyd edilir ki, əlilliyi müəyyən edilmiş şəxsə əməyə görə əmək pensiyası təyin edilərkən, onun 2006-cı ilin yanvarın 1-dək olan sığorta stajı həmin dövrə olan əmək qabiliyyətli yaş dövrünün hər ili üçün 4 ay götürülməklə hesablanacaq.

22.1.2.3-cü maddəyə gəlincə, təklif edilir ki, ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərkən, pensiyaçı olmayan vəfat etmiş şəxsin 2006-cı ilin yanvarın 1-dək olan sığorta stajı mövcud qanunun 22-1.2.2.-ci maddəsinə uyğun şəkildə hesablanacaq.

## Günəş tutulması baş verib

Yanvarın 6-da Günəş tutulması baş verib. Qismən Günəş tutulması yerli vaxtla saat 03:34-də olub və 07:49-da başa çatıb.

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından verilən məlumata görə ikinci Günəş tutulması isə iyulun 2-3-də baş verəcək. Bu dəfə Günəş tam tutulacaq və iyulun 2-də saat 20:55-dən 07:01-dək, iyulun 3-də isə 00:44-dən 01.02- dək davam edəcək. Təbiət hadisəsi Sakit Okeanın cənub hissəsində və Cənubi Amerikada izlənə biləcək.

Üçüncü Günəş tutulması isə halqavarı olacaq. Dekabrın 26-da saat 06:30-dan 12:06-dək baş verəcək Günəş tutulması Asiya-Avstraliya, Səudiyyə Ərəbistanı, Hindistan və digər ərazilərdən görünəcək.

Məlumatda deyilir ki, hər iki hadisəni Azərbaycanda 08:03-dən 08:52-dək səhər tezdən Günəş doğan ərəfədə üfüqə yaxın yerdə izləmək mümkün olacaq.

## Qəbələ şərabının artan şöhrəti buraya turist cəlb edilməsini genişləndirə bilər

Ötən ilin sonlarında Azərbaycanın Rusiyadakı ticarət nümayəndəsi Ruslan Əliyev bir neçə təşkilatın dəstəyi ilə şərabçılıqla məşğul olan rusiyalı ekspert və mütəxəssislərin jurnalistlərlə birlikdə ölkəmizdə şərab istehsal olunan bölgələrə beşgünlük səfərini təşkil etmişdir.

Qonaqlar rayonumuza da səfər etmiş, buranın zəngin təbiəti, möhtəşəm turizm infrastrukturu ilə yanaşı şərab istehsal edən müəssisələrinə də baş çəkmiş emal prosesilə yaxından tanış olmuşlar.

Səfər başa çatdıqdan sonra rus mətbuatında Azərbaycanda şərabçılığın müasir durumu, prospektivləri ciddi müzakirə mövzusuna çevrilmişdir.

Qeyd olunmalıdır ki, rusiyalı ekspertlərin Azərbaycana gəlişi təsadüfü yox, ölkədə islahatların dərin və elmi əsaslarla aparılması istiqamətində dövlətin təşəbbüsü ilə həyata keçirilən tədbirlərdən biridir. Ölkəmizdə aqrar sektor intibah dövrünü yaşayır, iqtisadiyyatın qeyri-neft sektoru surətlə inkişaf edir. İnkişaf etdirilməsinə xüsusi diqqət yetirilən sahələrdən biri də şərabçılıqdır. “2018-2025-ci illərdə “Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı” nda aqrar-sənaye kompleksinin ən gəlirli sahələrindən biri kimi şərabçılığın inkişafı qarşıya məqsəd kimi qoyulur.

Statistik məlumatlarda keçən əsrin 80-ci illərində respublikada 210 şərab zavodunda 56 adda şərab, 10 adda konyak, 4 adda şampan şərabı və digər məhsullar istehsal edildiyi göstərilir.

Həmin illərdə üzüm və şərab istehsalı Qəbələ rayonunda da geniş vüsət almışdır. Rayonun 4 iri təssərrüfatında (sovxozunda) 6 min tondan çox müxtəlif növlü üzüm yetişdirilərək şərab zavodunda emal olunurdu. Bu böyük və müsbət təcrübə diqqətlə öyrənilir və müasir tələblərə uyğun şəkildə inkişaf etdirilir. Bunun nəticəsidir ki, rusiyalı qonaqlar Qəbələdə istehsal olunan şərab



növlərini də yüksək qiymətləndiriblər.

Rusiyalı ekspert, mütəxəsis və jurnalislərin ölkəmizə, o cümlədən rayonumuza səfərinin yekununda maraqlı bir məqama da toxunub. Qeyd olunub ki, Azərbaycana gələn turistlər yalnız mətbəxlə yox, həm də bu ölkənin tarixi və mədəniyyəti ilə tanış olur, brendləri haqqında məlumat alırlar. Azərbaycanı ziyarət edən turistlər arasında saya görə Rusiya birinci yerdədir və ildən-ilə artım müşahidə olunur. Ötən il ərzində əcnəbilər ölkədə 800 milyon dollar xərcləyiblər.

Rusiyalı mütəxəssislər belə qənaətə gəliblər ki, Azərbaycan şərabçıları öz keyfiyyətli məhsulları ilə turizm sahəsində iştirak edə bilər. Ötən il şərab ixracı 43 faiz artmışdır. İstehsalda ciddi artım vardır.

Mütəxəsislər bu fikirdədilər ki, turizmlə şərabçılığın birləşərək keyfiyyətli şərab səfərləri təşkil edilməsi əcnəbilərə həddən ziyadə maraqlı gələcək. Dünyanın bütün şərab istehsalçıları bu cür səfərləri çoxdan və uğurla həyata keçirirlər. Azərbaycan isə tarixi və mədəni abidələrin zənginliyinə, bu günkü yüksək infrastrukturuna, inkişafına və təbii gözəlliyinə görə turistlərə daha maraqlı gələcək Rusiyanın “Vestnik Kovkaza” internet saytı Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnsitutunun əməkdaşı Aleksandr Karavayevin Azərbaycanda turizmin inkişafına dair ölkə KİV-ində gedən bütün çıxışlarının analitik təhlili verilmiş, bu yazılarda Qəbələ rayonunda turizm imkanları o cümlədən şərab turizm imkanları yüksək dəyərləndirilmişdir.

**«Qəbələ»**

## Əməkhaqqından vergilər belə hesablanacaq

Mövcud qanunvericiliyə əsasən, ödənilmiş əməkhaqqına görə işçilərin və işəgötürənlərin ümumi vergi yükü 40-51% arasında dəyişir. Bu səbəbdən də həm işəgötürənlər, həm də işçilər iş yerlərinin rəsmiləşdirilməsindən yayınır və əməkhaqqının həqiqi məbləğinin gizlədilməsinə üstünlük verirlər. Ona görə də Azərbaycan hökuməti problemin köklü şəkildə həllinə nail olmaq məqsədilə müvafiq islahatları davam etdirir. Bu məqsədlə Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər artıq Milli Məclisdə qəbul edilmiş, ölkə başçısı tərəfindən təsdiq olunmuşdur. Vergi qanunvericiliyinə edilən dəyişikliklərə uyğun olaraq, əməkhaqqı üzrə vergi yükünün aşağı salınması və əməkhaqqının leqallaşdırılması istiqamətində həyata keçiriləcək islahatlar iki əsas komponenti əhatə edəcək. Hazırda ödənilmiş əməkhaqqına görə gəlir əldə edən şəxslər gəlir vergisinin (14 faiz) və sosial sığorta ayırmalarının (3 faiz sosial sığorta + 0,5 faiz işsizlikdən sığorta), işəgötürənlər isə yalnız sosial sığorta ayırmalarının (22 faiz sosial sığorta + 0,5 faiz işsizlikdən sığorta) ödəyiciləridir. Bu ödəmələr işəgötürənlər tərəfindən tutularaq dövlət büdcəsinə ödənilir.

Milli.Az marja.az-a istinadən xəbər verir ki, 2019-cu ilin yanvarından həyata keçiriləcək islahatlar nəticəsində neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid olan subyektlərlə münasibətdə 7 il müddətinə gəlir vergisi üzrə güzəşt tətbiq ediləcək. Vətəndaşların pensiya hüquqlarını nəzərdə tutan mövcud sığorta sisteminin təminat və uçot prinsiplərinin, habelə pensiya və müavinətlərin vaxtında maliyyələşdirilməsi üzrə mövcud ödəmə və hesabatlılıq sistemləri saxlanılacaq.

İslahat modelinə əsasən, aylıq məbləği 8000 manatadək olan əmək haqları üzrə fiziki şəxslərin gəlir vergisi 14 faizdən 0 faizə endiriləcək, əmək haqqının 8000 manatdan yuxarı olan hissəsi isə 14 faiz dərəcə ilə gəlir vergisinə cəlb olunacaq. Güzəşt məbləğinin hazırkı 173 manatdan 200 manata qaldırılması (büdcə təşkilatlarına, dövlət müəssisələrinə, neft-qaz sektoruna şamil edilir) nəzərdə tutulur.

Sosial sığorta haqlarının və işsizlikdən sığorta dərəcələrinə gəlincə, bu, aşağıdakı qaydada müəyyən olunur:

- əməkhaqqının 200 manatadək olan məbləği üzrə: işçi - 3,5 faiz, işəgötürən - 22,5 faiz (cəmi 26 faiz);
- əmək-haqqının 200 manatdan yuxarı olan hissəsi üzrə: işçi - 10,5 faiz, işəgötürən - 15,5 faiz (cəmi 26 faiz).

İslahat nəticəsində qeyri-neft və qeyri-dövlət sektorlarında işəgötürənlərin əmək xərcləri əhəmiyyətli şəkildə azalacaq ki, bu da özəl sektorun rəqabət qabiliyyətinin artırılmasına və iqtisadi artımın stimullaşdırılmasına xidmət edəcək. Muzdlu işçilərin vergi yükünün aşağı salınması işəgötürənlərlə yanaşı, iqtisadiyyatın bütün sektorlarında, xüsusilə özəl sektorda çalışan muzdlu işçilərin də gəlirlərinin bir hissəsinin onlarda qalmasını şərtləndirəcək. Leqallaşma nəticəsində faktiki əməkhaqqının rəsmi sənədlərdə tam şəkildə göstərilməsi işçilərin pensiya və digər sosial hüquqlarının təmin olunmasına, habelə vətəndaşların kredit almaq imkanlarının genişlənməsinə şərait yaradacaq.

Xatırladaq ki, bu islahatların qeyri-dövlət sektorunda çalışan təxminən 450 min nəfərin əmək gəlirlərinin artırılmasına xidmət edəcəyi proqnozlaşdırılır. Güzəştli məbləğin tətbiqi nəticəsində işçilərin əməkhaqlarında azalma olmayacaq. İslahatlardan sonra qeyri-rəsmi məşğulluğun səviyyəsi azalacaq və sahibkarların əmək münasibətlərini rəsmiləşdirməsinə iqtisadi marağı artacaq.

Beləliklə, qanunvericiliyə edilən dəyişikliyə əsasən, Vergi Məcəlləsi üzrə əməkhaqqından gəlir vergisinin hesablanması 2 kateqoriyaya bölünəcək: dövlət və neft-qaz sahəsində fəaliyyəti olanlar; neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslər.

Hər iki kateqoriya üzrə ayda 500 manat əməkhaqqı alan işçilərin vergi və sosial sığorta ödənişlərinin hesablanmasına dair nümunələri təqdim edirik:

Dövlət və neft-qaz sahəsində fəaliyyət göstərənlər üçün:

Vergi üzrə: 500 - 200 (2500 manata qədər 200 manat güzəşt olunur) = 300 manat

300 manat x 14 faiz (gəlir vergisi) = 42 manat

Sosial sığorta üzrə: 500 x 3,5 faiz = 17,5 manat

Cəmi: 59,5 manat

500 manat - 59,5 manat = 440,5 manat. Yəni dövlət və neft-qaz sahəsində çalışan və aylıq maaşı 500 manat olan işçilər vergi və sosial sığorta haqlarını ödədikdən sonra 440,5 manat əməkhaqqı alacaq.

Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektorunda çalışanlar üçün:

Vergi üzrə: Gəlir vergisi - 0 faiz (8000 manata qədər gəlir vergisi üzrə güzəşt olunur)

Sosial sığorta üzrə: 6+ (500-200) x10,5 faiz = 37,5 manat

Cəmi: 37,5 manat.

500-37,5=462,5 manat. Yəni neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektorunda çalışan və aylıq maaşı 500 manat olan işçilər vergi və sosial sığorta haqlarını ödədikdən sonra 462,5 manat əməkhaqqı alacaqlar.